40 (1190) 7-13 oktyabr 2021-ci il

İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

# İ.ƏLİYEV: "BUNDAN SONRA QALİB XALQ VƏ MÜZƏFFƏR ÖLKƏ KİMİ ƏBƏDİ YAŞAYACAĞIQ"



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Tərtər və Bərdə rayonlarında səfərdə olub.

Dövlətimizin başçısı Tərtərin Suqovuşan qəsəbəsinə və Talış kəndinə gedən avtomobil yollarının açılışını edib.

Qeyd edək ki, Suqovuşan-Xan arxının 37 kilometr betonlama işinin layihəsi də artıq hazırlanıb. Suqovuşanın işğaldan azad olunması ilə Bərdə, Goranboy, Naftalan, Yevlax, Ağcabədi rayonları daxil olmaqla təxminən 30 min hektara yaxın əraziyə ilk dəfə su verilib. Bu da fermerlərə növbəli əkini təmin etməyə imkan yaradıb. Fermerlər artıq iki mərhələdə işləyə bilirlər.

* * * * *

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Tərtər rayonunda Talış-Tapqaraqoyunlu-Qaşaltı-Naftalan avtomobil yolunun təməlini qoyub.**

Tərtərin Talış kəndindən Goranboy rayonunun Tapqaraqoyunlu kəndini keçməklə Naftalan şəhərinə doğru yeni yolun inşası yolboyu yerləşən yaşayış məntəqələrinin sakinlərinin rahat gediş-gəlişini təmin etməklə bərabər bölgənin sosial-iqtisadi inkişafına töhfə verəcək. Bu yolun istifadəyə verilməsi nəticəsində Tərtər şəhəri ilə yanaşı alternativ olaraq Naftalan şəhərindən də bu istiqamətdə hərəkət etmək mümkün olacaq. Yolun ümumi uzunluğu 22 kilometr təşkil edəcək.

* * * * *

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Tərtər rayonunun Talış kəndində Azərbaycan bayrağını ucaldıb.**

Sonra Prezident İlham Əliyev Talış kəndində ermənilər tərəfindən dağıdılmış alban-udi kilsəsində olub.

* * * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Tərtər rayonunun Suqovuşan qəsəbəsində Azərbaycan bayrağını ucaldıb.

**Dövlətimizin başçısı çıxışında deyib:** - Bir il bundan əvvəl, oktyabrın 3-də Suqovuşan qəsəbəsi işğaldan azad edilmişdir.

Suqovuşan qəsəbəsinin azad edilməsi strateji nöqteyi-nəzərdən çox böyük əhəmiyyət kəsb edirdi. Çünki bu qəsəbənin yerləşməsi müharibənin gedişatında önəmli rol oynayırdı və qəsəbənin əlimizdə olması bizə gələcək əməliyyatlarımızda üstünlük təşkil edirdi. Düşmən yəqin ki və təbii ki, bilirdi, biz bu istiqamətdən hərəkətə keçəcəyik. Talış kəndi və Suqovuşan qəsəbəsi bir gündə - keçən il oktyabrın 3-də işğaldan azad edilmişdir. Burada çox güclü istehkamlar qurulmuşdu, bir neçə müdafiə xətti təşkil edilmişdi. Bütün strateji yüksəkliklərdə, qəsəbəyə gedən yüksəkliklərdə düşmən yerləşmişdi. Azərbaycan Ordusu böyük qəhrəmanlıq və fədakarlıq göstərərək şiddətli döyüşlər nəticəsində Talışı və Suqovuşanı işğaldan azad etdi.

Bu kəndlərin strateji əhəmiyyəti ondadır ki, burada düşmənin çox böyük canlı qüvvəsi yerləşmişdi. Bu kəndlərin azad olunması bizim bu bölgədəki strateji yollara da nəzarətimizi təmin etdi və düşmənin canlı qüvvəsinin hərəkəti üçün, manevrləri üçün çox böyük problemlər yaradıldı, məhdudiyyət yaradıldı.

Suqovuşan qəsəbəsinin əhəmiyyəti, eyni zamanda, ondadır ki, burada Suqovuşan su anbarı yerləşir. Su anbarının çox böyük strateji əhəmiyyəti var. Bu su anbarı Sərsəng su anbarı ilə bərabər ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1976-cı ildə inşa edilmişdir. Bu su anbarlarının əsas məqsədi keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati hüdudlarının kənarında yerləşən rayonlara - Tərtər, Bərdə, Ağdam, Goranboy və digər rayonlara su vermək idi. İşğal zamanı mənfur düşmən bizə qarşı ekoloji terror da törədirdi, su terroru törədirdi. Yayda bizim kəndlilərimiz, fermerlərimiz susuz qalırdı, qışda isə suyu buraxıb daşqınlara səbəb olan təbii fəlakət törədirdilər.




Bu il Suqovuşan su anbarından istifadə edərək, 30 il ərzində ilk dəfə olaraq Tərtər və digər rayonlara su verildi. Bizim azad edilmiş torpaqlarda - Şərqi Zəngəzur və Qarabağ iqtisadi zonalarında mövcud olan su ehtiyatlarının səmərəli şəkildə istifadəsi ilə bağlı konkret addımlar atılır və çox ciddi proqram icra edilməkdədir. Artıq su mənbələrinin bütün xəritələri tərtib edilib və yeni su anbarlarının tikintisi gündəlikdə duran məsələdir.

* * * * *

**Bu gün Suqovuşanda və Talış kəndində olarkən bir daha xalqımızın, Silahlı Qüvvələrimizin qəhrəmanlığını görürəm. Buraya gələn hər kəs bunu görür və görəcək. Çünki bu yerləri işğaldan azad etmək, ölümə getmək, bax, xalqımızın böyüklüyünü göstərir.**

Bu gün hər iki kənddə Dövlət bayrağını ucaldaraq şəhidlərimizin əziz xatirəsinə bir daha ehtiramımı bildirirəm. Azərbaycan xalqına da təşəkkürümü bildirirəm ki, müharibə dövründə bir yumruq kimi birləşib orduya dayaq oldu, mənə arxa oldu və biz bunun hesabına düşmənin başını əzdik, Qələbə çaldıq. Bundan sonra qalib xalq və müzəffər ölkə kimi əbədi yaşayacağıq.

* * * * *

**Oktyabrın 3-də Tərtərdə "Suqovuşan-1" və "Suqovuşan-2" Kiçik Su Elektrik stansiyalarının yenidənqurmadan sonra açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.**

"Azərenerji" ASC-nin prezidenti Baba Rzayev dövlətimizin başçısına "Suqovuşan-1" stansiyasında görülən işlər barədə məlumat verib.

Prezident İlham Əliyev "Suqovuşan-2" Kiçik Su Elektrik Stansiyası ilə də tanış olub.

Diqqətə çatdırılıb ki, hər iki stansiya əsaslı şəkildə yenidən qurulub, o cümlədən onların idarəetmə mərkəzinin binaları və avadanlıqları, stansiyalararası elektrik veriliş xətti tam yenilənib. "Suqovuşan-2" stansiyasında ildə 8,7 milyon kVt/saat elektrik enerjisinin istehsal olunması nəzərdə tutulub.

Dövlətimizin başçısı stansiyaları işə salıb.

* * * * *

Oktyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələrinin "Smerç" raketləri ilə hücumu nəticəsində Tərtər şəhərinin sakini Sahib İsmayılovun dağılmış evinə baxıb və onun əvəzinə inşa edilən yeni evdə yaradılan şəraitlə tanış olub.

* * * * *

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də Cəbrayıl rayonunda səfərdə olub.**

Prezident İlham Əliyev "KamAZ" ASC ilə "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyinin birgə servis mərkəzinin təməlqoyma mərasimində iştirak edib.

**Dövlətimizin başçısı burada Rusiya Federasiyası Tatarıstan Respublikasının Baş nazirinin müavini, Sənaye və Ticarət naziri Albert Kərimov və "KamAZ" ASC-nin baş direktorunun müavini Rüstəm Şamsutdinovla görüşüb.**

Albert Kərimov Rusiya Federasiyası Tatarıstan Respublikasının Prezidenti Rüstəm Minnixanovun salamlarını dövlətimizin başçısına çatdırıb.

Bildirilib ki, son illərdə Azərbaycanla Rusiya arasında strateji tərəfdaşlığa əsaslanan dostluq münasibətləri bütün digər sahələrdə olduğu kimi, iqtisadi sahədə də uğurla inkişaf edir. Azərbaycanın Rusiyanın ayrı-ayrı regionları, o cümlədən Tatarıstan Respublikası ilə səmərəli qarşılıqlı əməkdaşlıq münasibətləri var. Yük maşınlarının istehsalı üzrə dünyanın aparıcı şirkətlərindən olan "KamAZ"ın Cəbrayılda "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyi ilə birgə servis mərkəzinin yaradılması bunun göstəricisidir.

"Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında yaradılacaq regional servis mərkəzinin ümumi ərazisi 1,5 hektar olacaq. Ərazidə satış zalı, maliyyə xidmətləri şöbəsi, xidmət bürosu, menecer şöbələri, təmir zonası ustalarının ofisləri və ehtiyat hissələri anbarının yerləşəcəyi inzibati bina, yük avtomobilləri və kənd təsərrüfatı texnikalarına xidmət üçün qulluq blokları, təmir sexləri, avtoyuma və dayanacaq fəaliyyət göstərəcək. Mərkəzdə "KamAZ" ilə yanaşı, digər yük avtomobilləri, eləcə də kənd təsərrüfatı texnikalarına, o cümlədən traktor və kombaynlara texniki servis xidməti göstəriləcək. Burada 36 yeni iş yerinin yaradılması nəzərdə tutulur.

"KamAZ" ASC-nin "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyi ilə birgə layihəsinə 2014-cü ildə start verilib. "KamAZ"ın ilk partiyası 2015-ci ildə buraxılıb. Hazırda orada 8 model "KamAZ" buraxılır və indiyədək 1000-dən çox maşın istehsal olunub. Rusiya bankının maliyyəsinin cəlb edilməsi ilə gələcəkdə lizinq şirkətinin, ehtiyat hissələri üzrə regional anbarların yaradılması, mövcud xidmət mərkəzlərinin müasirləşdirilməsi nəzərdə tutulur. Bundan başqa, Cəlilabad, İsmayıllı və İmişlidəki servis mərkəzləri modernləşdiriləcək. Diqqətə çatdırılıb ki, Zəngəzur dəhlizinin işə düşməsi ilə yükdaşımalarının həcmi artacaq.

* * * * *

**Oktyabrın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şərqi Zəngəzur iqtisadi rayonunda yaradılacaq "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının təməlini qoyub.**

Dövlətimizin başçısına sənaye parkı haqqında məlumat verilib. Bildirilib ki, Cəbrayıl rayonunda yaradılacaq sənaye parkı 200 hektar ərazini əhatə edəcək. Ərazi kənd təsərrüfatı məhsullarının emalı, sənaye, sosial və texniki zonalara bölünəcək. Burada logistika və ticarət mərkəzi, anbar kompleksləri, topdan və pərakəndə satış obyektləri, TIR parkı, gömrük, yanacaqdoldurma, avtomobil və digər texnikaların təmiri məntəqələrinin yaradılması planlaşdırılır. Sənaye Parkında tikinti üçün üzlük və izolyasiya materialları, müxtəlif qatqı maddələri, metal konstruksiya istehsalı müəssisələrinin təşkili nəzərdə tutulur. Parkın ərazisində, həmçinin kənd təsərrüfatı məhsullarının qablaşdırılması, meyvə-tərəvəz konservləri, süd və ət məhsulları istehsalı və emalı, şərab, yem, gübrə istehsalı, ipəkçilik müəssisələrinin, soyuducu kameraların qurulması, kiçik istehsal və xidmət sahələrinin yaradılması planlaşdırılır.

Bu layihənin həyata keçirilməsi bölgənin potensialının ölkə iqtisadiyyatına reinteqrasiyasına, yerli istehsalın inkişafına böyük təkan verəcək, məşğulluq səviyyəsinin yüksəlməsinə əlavə imkanlar yaradacaq.

* * * * *

**Oktyabrın 4-də Cəbrayıl rayonunda 110/35/10 kilovoltluq "Cəbrayıl" yarımstansiyasının açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yarımstansiyanın açılışında iştirak edib.**

"Cəbrayıl" yarımstansiyası, ilk növbədə, bu rayonda yerləşən hərbi obyektləri, yeni yaradılan sosial-iqtisadi infrastruktur layihələrini, eləcə də rayonun ümumi şəhərsalma konsepsiyasına əsasən, Cəbrayıl şəhərini və bütövlükdə rayonun bütün kənd-qəsəbələrini elektrik enerjisi ilə təmin edəcək.

* * * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də Cəbrayılda Dövlət Sərhəd Xidmətinin hərbi hissə kompleksinin açılışını edib.

Hərbi hissənin silah və döyüş texnikası arsenalına "Harop" və

“Quzğun” zərbəendirici pilotsuz uçuş aparatları, tank əleyhinə dəzgahlı qumbaraatanlar, tank əleyhinə idarə olunan raketlər, 120 millimetrlik və 82 millimetrlik minaatanlar, zenit qurğuları və digər müasir silah sistemləri, atıcı, qrup və snayper silahları, müşahidə və gecəgörmə cihazları, termal qurğular və nişangahlar, xüsusi təyinatlı avadanlıqlar, həmçinin zirehli transportyorlar, yüksək keçidli avtomobillər, zirehli döyüş maşınları daxil edilib. Dövlətimizin başçısının tapşırığına əsasən işğaldan azad olunan ərazilərdə zəruri sərhəd müdafiə və mühafizə infrastrukturunun yaradılması üzrə fəaliyyətlər davam etdirilir. Prezident İlham Əliyev “Harop” pilotsuz uçuş aparatlarına baxıb.

* * * * *

**Oktyabrın 4-də Cəbrayıl Rayon Mərkəzi Xəstəxanasının, Cəbrayıl şəhərində akademik Mehdi Mehdizadə adına tam orta məktəbin və ilk çoxmənzilli yaşayış məhəlləsinin təməlqoyma mərasimlərində iştirak edib.**

* * * * *



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də Cəbrayıl ictimaiyyətinin nümayəndələri ilə görüşüb, Memorial Kompleksin və şəhərin bərpasının təməl daşını qoyub.

Prezident İlham Əliyev əvvəlcə Cəbrayıl ictimaiyyətinin nümayəndələri ilə görüşüb.

**O, deyib:** - Cəbrayıllılarla müzəffər Ordumuzun Qələbəsindən sonra ilk görüşümdür və bu görüşü məhz oktyabrın 4-də keçirmək xüsusi məna daşıyır. Çünki düz bir il əvvəl məhz oktyabrın 4-də Azərbaycan Ordusu Cəbrayıl şəhərini işğalçılardan azad etdi və bu gün bu şanlı tarixi birlikdə qeyd etmək üçün mən cəbrayıllıları onların öz yurduna, vətəninə dəvət etdim. Ona görə “Cəbrayıla xoş gəlmisiniz” demək sözləri ilə öz çıxışıma başlayıram. Amma əminəm ki, bundan sonra mən Cəbrayıla gələndə həmişə cəbrayıllılar mənə “Xoş gəlmisiniz, cənab Prezident” deyəcəklər.

Bu gün bir ilə görülmüş işlərə qiymət verərkən, əlbəttə, görürük ki, dövlətimizin, xalqımızın nə qədər böyük potensialı var. Çünki ermənilər tərəfindən tamamilə dağıdılmış ərazilərə cəmi bir ildən sonra həyatı qaytarmaq, insanları qaytarmaq böyük potensialdan xəbər verir. **Biz bütün gücləri səfərbər etmişik və ədəcəyik ki, qısa müddət ərzində Cəbrayılı və bütün başqa rayonlarımızı yenidən quraq, bərpa edək. Buraya gələn hər bir insan bu dağıntıları görür və erməni vəhşiliyinin, erməni vandallığının şahidi olur.**

Oktyabrın 4-ü bizim tariximizdə əbədi qalacaq. Çünki oktyabrın 4-də Cəbrayıl şəhəri işğalçılardan azad edildi və bu Qələbənin çox böyük mənası var idi. Çünki ilk dəfə olaraq müharibənin birinci həftəsində şəhər, rayon mərkəzi azad edilmişdi. Bunun çox böyük rəmzi mənası var idi. Bu, bizim Ordumuza əlavə güc verdi, inam verdi. Bu Qələbədən sonra bizim şanlı Ordumuz öz tarixi missiyasını digər yerlərdə də icra etmişdir. Cəbrayıllılar yaxşı bilirlər ki, müharibənin ilk günündə Cəbrayılın iki kəndi işğalçılardan azad edilmişdir – Böyük Mərcanlı və Nüzgar kəndləri, Füzuli rayonunun 4 kəndi bizim birinci uğurumuz idi. Amma ondan sonra bir həftə ərzində şiddətli döyüşlər getdiyi zaman hər hansı bir yeni yaşayış məntəqəsini azad etmək mümkün olmamışdır.

Oktyabrın 4-də cəbrayıllıları və bütün Azərbaycan xalqını mən bu xoş müjdə ilə sevindirmişdim - Cəbrayıl şəhəri azad edilmişdir! Bir il bundan əvvəlki dövrə qayıtsaq Qələbəmizin əzəmətini bir daha görərik. Çünki müharibə getdiyi zaman, əlbəttə, bizim gündəlik fəaliyyətimiz qələbəni möhkəmləndirmək, işğal edilmiş bütün torpaqları azad etməkdən ibarət idi. **Yəni, əldə edilmiş uğurları təhlil etmək üçün heç vaxt yox idi və buna heç gərək də yox idi. Amma bu gün müharibədən və Cəbrayılın azad olunmasından bir il keçməsindən sonra bunu daha dəqiq və aydın təhlil edərkən görürük ki, bu Qələbənin çox böyük əhəmiyyəti olmuşdur.**

Cəbrayıl əməliyyatının əhəmiyyəti, eyni zamanda, ondan ibarət idi ki, Cəbrayıl azad olunandan sonra o vaxt işğal altında olan bizim digər rayonlara uğurlu addımlarımız mümkün olmuşdur. Cəbrayıldan sonra Zəngilan, ondan sonra Qubadlı və Laçın rayonunun cənub hissəsi işğalçılardan azad edildi. Beləliklə, Laçın dəhlizini biz tam nəzarətə götürə bildik. Mən demişəm, bir daha demək istəyirəm ki, Soltanlı və Əmirvarlı kəndləri uğrunda bir neçə gün çox şiddətli döyüşlər gedirdi və bu, o yerlərdən biri idi ki, Ermənistan ordusu orada dirəniş göstərmişdi və orada böyük istehkamlar qurulmuşdu.

Cəbrayılın azad olunması artıq beş il bundan əvvəl başlamışdı. Aprel döyüşləri nəticəsində Cocuq Mərcanlı kəndinə insanları qaytarmaq üçün imkanlar əldə edildi. Strateji yüksəkliklər işğalçılardan azad olunandan sonra Cocuq Mərcanlıya həyatın qayıtması artıq mümkün olmuşdur və bu, bizim önəmli qələbəmiz idi.

Yəni, bizim “Böyük Qayıdış”ımız Cəbrayıldan başlamışdır və İkinci Qarabağ müharibəsindəki birinci ciddi uğurumuz da məhz Cəbrayıl şəhəri ilə, Cəbrayıl rayonu ilə bağlıdır. Bu, ölkəmizin tarixində əbədi qalacaq bir hadisədir. Çünki İkinci Qarabağ müharibəsindəki Qələbəmiz tarixi qələbədir. Buna bənzər Qələbə xalqımızın çoxəsrlik tarixində olmamışdır. Düşmən bizim qabağımızda diz çökdü, ağ bayraq qaldırdı və bundan sonra Azərbaycan xalqı əbədi olaraq qalib xalq kimi yaşayacaq.

Biz həm beynəlxalq hüququ, həm tarixi ədaləti, həm insani ədaləti bərpa etdik. Çünki bax, bu dağıntıları törədən insan deyil, buna insan demək olmaz. Bunu törədən Azərbaycan xalqına o qədər nifrət etməli idi ki, bax, bu çirkin əməllərə əl atsın. O Azərbaycan xalqına ki, ermənilərə vaxtilə qucaq açıb. O Azərbaycan xalqına ki, vaxtilə çar Rusiyası tərəfindən İrandan köçürülmüş ermənilərə burada yer verib. Düzdür, Cəbrayıl rayonunda ermənilər yaşamayıb, heç bir faiz də erməni əhalisi olmayıb. Mən arayışa baxdım, işğaldan əvvəl Cəbrayılda cəmi 10 erməni yaşayırdı. Ancaq Qarabağın digər yerlərində Azərbaycan xalqı onlara yer verdi. Sənə çörək verənə qarşı belə nankorluq, belə qəddarlıq, bu qədər vəhşilik hesab edirəm ki, dünya tarixində misli-bərabəri olmayan barbarlıq və vandallıqdır. Bu gün Ermənistanın havadarları, bax, bunu görməlidirlər. Görmək istəməsələr də, görməlidirlər və görəcəklər. Bütün dünya görür. Biz artıq kitablar nəşr etməyə başlamışıq. Biz təqdimatlar keçirməyə başlamışıq. Biz bütün dünyaya erməni vəhşiliyi ilə bağlı dolğun məlumatın verilməsinə nail olacağıq.

Biz hərbçilərimizlə haqlı olaraq fəxr edirik və fəxr edəcəyik. Onlar əsl qəhrəmandırlar. Biz bütün xalqımızla fəxr edirik. Çünki bu 44 gün ərzində göstərilən həmrəylik, göstərilən birlik bütün dünyaya Azərbaycan xalqını çox ləyaqətli və böyük xalq kimi təqdim etdi. Bizim Qələbəmizin rəmzi olan yumruq təkcə güc rəmzi deyil, bu, birlik rəmzidir. Biz birləşdik və istədiyimizə nail olduq, tarixi ədaləti bərpa etdik.

**Ona görə İkinci Qarabağ müharibəsinin bitməsi o demək deyil ki, region əvvəlki vəziyyətə qayıdacaq. Heç vaxt əvvəlki vəziyyət olmayacaq.**

Hazırda regionda real praktiki əməkdaşlıq çərçivələri müəyyən olunur. Türkiyə-Rusiya əməkdaşlığı regionumuzun sabitliyinin təminatçısıdır. Bu yaxınlarda Türkiyə və Rusiya prezidentlərinin görüşü zamanı Ermənistan-Azərbaycan münasibətləri müzakirə olundu və həm Türkiyə, həm Rusiya ilə biz daim təmasdayıq. Mən Prezident olaraq daim təmasdayam. Bölgədə bu gün sabitliyin bərqərar olmasında Türkiyə və Rusiyanın rolu çox böyükdür. Yəni, bizə bu format kifayətdir. Ermənistan da bu formata qoşulacaq. Çünki başqa yolu yoxdur. İndi reallıq bundan ibarətdir. Son vaxtlar Türkiyə-Ermənistan əlaqələrinin normallaşdırılması ilə bağlı verilən ifadələri də biz dəstəkləyirik. Biz açıq deməşik ki, biz bunu dəstəkləyirik. Hesab edirik ki, bu, region üçün lazımdır. Yəni, artıq bu, müharibənin hər hansı bir riskini aradan götürmək üçün lazımdır. Yəni, bizim üçün bu format kifayətdir - Türkiyə-Rusiya-Azərbaycan-Ermənistan. Kim istəyir qoşulsun, kim istəmir özü bilər. Hər halda, bu gün Azərbaycanın razılığı olmadan bu bölgədə hər hansı bir təşəbbüs gerçəkləşə bilməz. Bunu hər kəs bilməlidir.

**O ki qaldı, regionun gələcək inkişafı ilə bağlı, biz əməkdaşlığa hazırıq. Bu yaxınlarda Azərbaycan və Ermənistan xarici işlər nazirləri görüşmüşdülər. BMT Baş Assambleyasının sessiyası əsnasında, o cümlədən onların arasında ikitərəfli görüş olmuşdur. Mənə bizim xarici işlər naziri məruzə edib və bildirdi ki, görüş konstruktiv keçib. Biz də elə bunun tərəfdarıyıq.**

# Çoxtərəfdaşlı Etimad Fondunun yaradılması müzakirə olunur



İqtisadiyyat naziri Mikayıl Cabbarov BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreyeva ilə görüşüb.

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, Mikayıl Cabbarov mühüm vəzifəyə təyinatı münasibətilə Vladanka Andreyevanı təbrik edib, ona ölkəmizdəki fəaliyyətində uğurlar arzulayıb. İqtisadiyyat naziri sentyabrın 23-də BMT Baş Assambleyasının 76-cı sessiyasının illik ümumi müzakirələrində Prezident İlham Əliyevin videoformatda çıxışından irəli gələn çağırışları və aktual məsələləri diqqətə çatdırıb, qarşıya qoyulmuş hədəflərə çatmaq üçün BMT və onun ixtisaslaşmış qurumları ilə əməkdaşlığın əhəmiyyətini vurğulayıb. Qeyd edilib ki, BMT və Azərbaycan Hökuməti arasında 2021-2025-ci illər üçün Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə Sənədi imzalanıb və hazırda icra olunur. Diqqətə çatdırılıb ki, BMT-nin ixtisaslaşmış qurumları ilə əlaqələr qurulub və səmərəli əməkdaşlıq həyata keçirilir. Hazırda BMT-nin Azərbaycandakı Nümayəndəliyi tərəfindən Kiçik və Orta Biznesin İnkişafı Agentliyi və Sahibkarlığın İnkişafı Fondu ilə birgə üçtərəfli anlaşma memorandumunun imzalanması, Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədlərinin Sürətləndirilməsi üçün Çoxtərəfdaşlı Etimad Fondunun yaradılması məsələləri barədə müzakirələr aparılır. Bunlar isə əməkdaşlığın genişləndirilməsi üçün əlavə imkanlar yaradacaq.

BMT-nin Azərbaycanda rezident əlaqələndiricisi Vladanka Andreyeva təbrikə görə təşəkkür edib, Azərbaycanda fəaliyyətə başlamasından məmnunluğunu bildirib. Vladanka Andreyeva BMT-nin ölkəmizlə bir sıra sahələr üzrə səmərəli əməkdaşlığını diqqətə çatdırıb, fəaliyyəti dövründə tərəfdaşlığın daha da gücləndirilməsi üçün səy göstərəcəyini vurğulayıb.

Görüşdə BMT və Azərbaycan Hökuməti arasında Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə Sənədinin (2021-2025-ci illər üzrə) icrası, Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədlərinin maliyyələşməsi məsələləri müzakirə edilib.

# Pakistan Azərbaycan üzərindən Avropaya yükdaşımalara başlayıb

**Pakistan ixrac imkanlarını genişləndirmək məqsədilə Azərbaycan və Avropaya yükdaşımalara başlayıb.**



Azərbaycan Beynəlxalq Avtomobil Daşıyıcıları Assosiasiyasından (ABADA) bildirilib ki, bu məqsədlə “National Logistics Cell” logistika şirkətinin nümayəndə heyəti Bakıda səfərdədir. Səfər çərçivəsində Pakistan nümayəndə heyəti ilə ABADA-da, Dövlət Avtomobil Nəqliyyatı Xidməti və Assosiasiya rəsmiləri arasında görüş keçirilib. Görüşdə Azərbaycanın tranzit imkanları və Pakistana məxsus yük nəqliyyat vasitələrinin Azərbaycan üzərindən yerli prosedur qaydalarına uyğun keçidinin təmin olunması ilə bağlı fikir mübadiləsi aparılıb.

“National Logistics Cell” logistika şirkətinin rəsmisi Faysal Zeşan Pakistanın yerli istehsalı olan mərmər, ipək, çəltik, tekstil kimi malların Avropada alıcılıq qabiliyyəti yüksək olduğundan bu məhsulların ixrac imkanları üzərində çalışdıqlarını deyib. Pakistana məxsus ilk sınaq yük partiyasının artıq Azərbaycan ərazisindən keçərək Türkiyəyə çatdığı qeyd olunub. Azərbaycana ilk sınaq yükləri isə oktyabrın 5-6-da çatacaq.

**Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin rəis müavini Anar Rzayev iki ölkə arasında icazə mübadiləsinin vacibliyinə toxunub.**

Pakistanın “National Logistics Cell” logistika şirkətinin Beynəlxalq Nəqliyyat Konvensiyası (TIR) çərçivəsində bu daşımaları icra edə biləcəyi qeyd edilib.

ABADA-nın baş katibi Orxan Əfəndiyev İctimai Birlik olaraq “National Logistics Cell” logistika şirkətinə lazımi dəstəyin göstəriləcəyini bildirib. Görüşdə yeni yaradılan Pakistan-Azərbaycan İqtisadi Palatasının iki ölkə arasında ixrac-idxal imkanlarına müsbət təsir edə biləcəyi vurğulanıb. Pakistana məxsus yüklərin Azərbaycan daşıyıcıları vasitəsilə Avropaya daşınma imkanları da müzakirə olunub.

# Gömrük Komitəsi ilə BP-nin qarşılıqlı əməkdaşlıq əlaqələri barədə danışılıb

Oktyabrın 5-də Dövlət Gömrük Komitəsinin (DGK) sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev BP şirkətinin Azərbaycan, Gürcüstan və Türkiyə regionunda kommunikasiya və xarici əlaqələr üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli ilə görüşüb.

Komitənin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən bildirilib ki, Səfər Mehdiyev müstəqil Azərbaycanın yeni neft strategiyasının ulu öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu və dövlətçilik tarixində xüsusi yer tutduğunu, bu strategiyanın bu gün də uğurla icra edildiyini vurğulayıb.

Tarixə “Əsrin müqaviləsi” kimi daxil olan Sazişin imzalanmasından sonra ilkin neftin əldə olunması, bu istiqamətdə layihələrin həyata keçirilməsində BP şirkəti tərəfindən çox mühüm işlər görüldüyünü qeyd edən Səfər Mehdiyev ötən illər ərzində adı çəkilən şirkətlə gömrük orqanları arasında mövcud əlaqələrdən də məmnunluqla söhbət açıb.

Komitə sədri bu sahədə gömrük orqanlarının üzərinə düşən vəzifələrin layiqincə yerinə yetirildiyini, gömrük nəzarətinin və gömrük rəsmiləşdirilməsinin daha operativ surətdə aparılması üçün ardıcıl tədbirlərin həyata keçirildiyini bildirib.

Son illər Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən mütərəqqi islahatlardan bəhs edən Səfər Mehdiyev, dövlətimizin başçısının təşəbbüsü ilə tətbiq olunan yeniliklər hesabına gömrük işinin bütün sahələrində mühüm nailiyyətlər əldə olunduğunu, sahibkarlar üçün daha əlverişli biznes mühitinin yaradıldığını və xarici ticarət əməliyyatlarının daha da stimullaşdırıldığını diqqətə çatdırıb.

# RƏQƏMSAL MÜHİTDƏ BÖHRAN EHTİMALI VƏ ARTIM AMİLLƏRİ

Rəqəmsallaşma proseslərinin xüsusi olaraq intensivləşdiyi müasir dövrdə rəqəmsal iqtisadiyyatda artımın səciyyələndirilməsi gündəlikdə duran məsələdir. Tətbiq edilən rəqəmsal texnologiyaların iqtisadi artıma töhfəsinin qiymətləndirilməsi həlledici məsələ olub, həm nəzəri, həm də təcrübi baxımdan mühüm əhəmiyyətə malikdir. Belə ki, rəqəmsal iqtisadiyyatın inkişafına dair investisiya qərarlarının qəbul edilməsi rəqəmsal texnologiyaların iqtisadi artıma töhfəsinin nəticələrindən bilavasitə asılıdır. Rəqəmsal iqtisadiyyatda artımın perspektivlərini təhdid edən mühitin araşdırılması, onların qarşısının alınması, inkişafın təşviqi məsələləri bu baxımdan xüsusi aktuallıq kəsb edir.

### RƏQƏMSAL TEXNOLOGİYALARIN İQTİSADİ ARTIMA TÖHFƏSİNİN QİYMƏTLƏNDİRİLMƏSİNƏ DAİR

Dördüncü sənaye inqilabı ərəfəsində iqtisadi inkişafa münasibətdə olduqca çoxsaylı məsələlər müzakirə obyektidir. İqtisadi artıma münasibətdə isə ortaq fikirlərin iqtisadi inkişafa nisbətən daha çox olduğunu söyləyə bilərik. İqtisadi inkişaf, ilk növbədə iqtisadi artımı nəzərdə tutsa da, onlar arasındakı fərq o qədər geniş spektrlidir ki, həmin fərqi elmi nəzəriyyənin və cari təcrübənin fərqi ilə müqayisə etmək olar. Təkcə onu qeyd etmək kifayətdir ki, iqtisadi artımın keyfiyyət xarakteristikalarına münasibətdə yol verilən şərtiliklər iqtisadi inkişaf müstəvisində yolverilməzdir. İqtisadi fəaliyyətin keyfiyyət xarakteristikalarını şərtləndirən başlıca amil rolunda innovasiyaların çıxış etməsi iqtisadi inkişafın dinamikasının qiymətləndirilməsinə daha əsaslandırılmış yanaşmalar tələb edir. Həmin əsaslandırmalar müsbət iqtisadi artım şəraitində həyatın keyfiyyətinin yüksəlməsində ləngimələrin müşahidə olunduğu hallarda xüsusilə gündəlikdən düşmür. İnsan kapitalının roluna diqqət günbəgün artsa da, hazırki səviyyəni onun müasir iqtisadi inkişafdakı roluna adekvat saymaq hələ ki, çətindir.

İqtisadi inkişaf çoxtərəfli prosesdir və iqtisadi artımla yanaşı, iqtisadiyyatın, habelə innovasiya və vençur biznesi sektorunu əhatə edir. Bunlarla yanaşı, son vaxtlar bir qədər az adı çəkilən əmək məhsuldarlığının artırılması, struktur təkmilləşdirmələri və əlbəttə, insanların həyat keyfiyyətinin yüksəldilməsi proseslərini özündə ehtiva edir. İqtisadi inkişafda dövlətin tənzimləyici rolunun artması müasir iqtisadi inkişaf proseslərinin ayrılmaz komponentidir.

Klassiklər iqtisadi artımın və iqtisadi inkişafın müqayisəsinin, əlbəttə, bir sıra qeyd-şərtlərlə kəmiyyətin keyfiyyətlə müqayisəsi məsələsi olduğunu göstərmişlər. Bir əsrdən bundan əvvəl Şumpeterin yazdığı kimi, iqtisadi artım kəmiyyət, iqtisadi inkişaf isə keyfiyyət dəyişikliyidir. Belə ki, iqtisadi artım eyni mal və xidmətlərin istehsalı və istehlakının artımıdırsa, iqtisadi inkişaf istehsalda, məhsulda, idarəetmədə və s. innovasiyaların timsalında müsbət keyfiyyət dəyişiklikləridir.

İqtisadi artımda insan kapitalının rolu iqtisadiyyatın inkişaf səviyyəsi ilə bilavasitə əlaqədardır. İnkişaf etmiş ölkələrdə insan kapitalının iqtisadi artımın əsas amilinə çevrildiyini söyləmək olar. Rəqəmsal sektorda bu amilin artıma təsiri daha böyükdür. İnvestisya qoyuluşlarının başlıca istiqamətləri kimi, hazırda bu sektorda insan kapitalına, başqa sözlə, onu formalaşdıran amillərə (elm, təhsil, səhiyyə, tərbiyə, mədəniyyət, həyatın keyfiyyəti) vəsait qoyuluşları qeyd edilməlidir. Belə yanaşma inkişafın, habelə iqtisadi artımın dayanıqlığı tələblərinə uyğundur.

İqtisadi inkişafda insan kapitalına xüsusi diqqət verən Saymon Kuznets həmin kapitalın aparıcı rolunu əsaslandırır. O, göstərir ki, insan kapitalının çatışmaması, onun aşağı keyfiyyəti ölkəyə rəqabət qabiliyyətli texnoloji struktur yaratmağa imkan vermir. Doğrudan da, məhz rəqabət qabiliyyəti iqtisadi subyektlər üçün əlverişli bazar konyunkturunu şərtləndirə bilir. İqtisadi inkişafda qarşıya çıxan problemlər mahiyyət etibarı ilə əldə edilmiş rəqabət qabiliyyəti və bazar payı şəraitində tələb-təklif nisbətində təzahür edir. Bu baxımdan Şumpeterin aşağıdakı fikri ilə, əlbəttə ki, razılaşmaq lazımdır: tarazlıq nəzəriyyəsindən kənara çıxan kimi konyunktur problemləri sferasına düşürük və burada heç bir hadisə konyunktur ilə əlaqələndirilmədən izah edilə bilmir.

Rəqəmsal iqtisadiyyatın inkişafına yönəldilən investisiyaların artıma təsiri rəqəmsal texnologiyaların tətbiqinin iqtisadi məqsədəuyğunluğu ilə bilavasitə əlaqədardır. Həmin texnologiyaların tətbiqinin iqtisadi nəticələri, zənnimizcə, özlərini çox gözlətməməlidir. Məsələ ondadır ki, rəqəmsal texnologiyaların tətbiqi mühitindəki yüksək dinamizm müvafiq xərclərin məqbul nəticələnməsi prosesinin sürətlənməsini tələb edir.

Artım (ənənəvi) iqtisadiyyatından fərqli olaraq rəqəmsal iqtisadiyyatda əksər hallarda məhsuldarlıq və sürət (çeviklik) arasında kifayət qədər sıx əlaqə müşahidə edilir. Rəqəmsal bazar iştirakçılarının mövqeyini şərtləndirən amillər qismində rəqəmsallaşmanın tempi və miqyası iqtisadi fayda ilə yanaşı, əvvəldə göstərildiyi kimi, sosial problemlərin həlli üçün də əhəmiyyətli imkan yaradır. Lakin unutmaq olmaz ki, rəqəmsallaşmanın artan sürəti məşğulluğun strukturuna və səviyyəsinə arzuolunmaz təsir göstərə bilir. Bununla belə, daha çox bazar özünütənzimləməsinin imkanlarının araşdırıldığı mənbələrdə rəqəmsallaşmanın artan sürətindən faydalanma baxımından nikbinlik nümayiş etdirilir. Belə hallarda, xüsusilə qərb mənbələrində hesab edilir ki, rəqəmsal bazarların yaradılması və rəqəmsallaşmanın sürətlənməsi cəmiyyət və icmalar üçün əhəmiyyətli iqtisadi xeyir və əhəmiyyətli sosial fayda gətirə bilər. Rəqəmsallaşma məhsuldarlığı artırmaq, yeni iş yerləri yaratmaq və bütövlükdə cəmiyyətin həyat keyfiyyətini artırmaq potensialına malikdir.

İnvestorların rəqəmsal iqtisadiyyata artan marağını şərtləndirən amillər qismində informasiya-kommunikasiya texnologiyalarının qiymətlərinin aşağı düşməsi xüsusi qeyd olunur. Təcrübədə bu amil, doğrudan da, rəqəmsal layihələrin iqtisadi cəlbediciliyini artırır. Konkret şirkətin maraqları baxımından həmin cəlbediciliyə operativ reaksiya verilməsi rentabelli olsa da, bu meylin ictimai mənafeyə nə dərəcədə uyğun olması məsələsi, hələ ki, açıq olaraq qalır.

Rəqəmsal iqtisadiyyatın iqtisadi artıma təsiri ilə ölkə iqtisadiyyatının inkişaf səviyyəsi arasında əhəmiyyətli əlaqə müşahidə edilir. Bu baxımdan Huawei korporasiyanın 2016-cı ildə dünya ÜDM-inin 90%-ini və əhalisinin 78%-ini təşkil edən 50 ölkə üzrə rəqəmsallaşma proseslərini təhlil etməklə tərtib etdiyi hesabat və xüsusilə qlobal bağlantı indeksinin dinamikası maraq doğurur. Burada ölkələr üç qrupa bölünmüşdü: liderlər, uyğunlaşanlar və yenicə başlayanlar. Birinci qrupa ABŞ, Sinqapur və İsveç başçılıq edirdi. İkinci qrupun ortasında Çin (23-cü yer), Rusiya (26-cı yer) və Braziliya (30-cu yer) yer alır. Reytinqin sonunda, üçüncü qrupa Nigeriya, Banqladeş və Pakistan aid edilmişdir.

Haqqında danışılan indeksin hesablanmasına dair sənəddə göstərildiyi kimi, rəqəmsal mühitin iqtisadi səmərəliliyində süni intelekt sinergetik effekt yaradır. Həmin effekt, əsas etibarı ilə intellektual şəbəkə bağlantısı şəraitində reallaşır. Belə ki, rəqəmsal texnologiyaların şəbəkədə qarşılıqlı fəaliyyəti bazasında intellektual şəbəkə bağlantısı formalaşır. Başqa sözlə, Huawei korporasiyanın hesabatında göstərildiyi kimi, ***“süni intellektin beş dəstəkləyici texnologiyaya daxil olması sayəsində genişzolaqlı İnternet, Verilənlərin emalı Mərkəzləri, Bulud xidmətləri, Böyük verilənlər və Əşyaların internetinin baza şəbəkə bağlantısı intellektual şəbəkə bağlantısına çevrilə bilər. Bütöv bir sistem olaraq fəaliyyət göstərən intellektual şəbəkə qarşılıqlı bağlantısı bütün beş dəstəkləyici texnologiyaların gəlirliliyində sinergiya effekti yaradır ki, bu da onların bütün hissələrinin cəmindən çoxdur”.***



Təcrübi və nəzəri araşdırmalara əsaslanan bu mülahizənin özünü birmənalı surətdə təsdiqləməsi, zənnimizcə, yaxın perspektivin işidir.

İlkin araşdırmalar rəqəmsal texnologiyaların inkişaf səviyyəsi və iqtisadi artımın tempi arasında korrelyasiya asılılığının olduğunu göstərir. Hətta bəzi mənbələrdə iddia edilir ki, rəqəmsal texnologiyaların daha çox inkişaf etdiyi ölkələrdə iqtisadi artım daha yüksəkdir. Bu iddiaların nə dərəcədə əsaslı olmasının qiymətləndirilməsi zaman tələb edir. Bununla belə, “ağıllı” informasiya texnologiyası sistemlərinin resurslardan istifadəni optimallaşdırdığı və əmək məhsuldarlığını yüksəltdiyi son vaxtlar artıq mübahisə obyekti sayılmır.

### DOT-COM SİNDROMU VƏ ARTIMI ŞƏRTLƏNDİRƏN AMİLLƏR

Rəqəmsal iqtisadiyyatda artım və onun perspektivlərindən danışarkən eyforiyaya qapılma təhlükəsini yaddan çıxarmaq olmaz. Xronoloji təhlil imkanları məhdud olsa da, bu təhlükəni səciyyələndirmək üçün yaxın keçmişə müraciət etmək mümkündür. Deyək ki, müvafiq mənbələrdə dot-com adını almış neqativ təcrübəyə nəzər salaq. Ötən əsrin sonuncu onilliyində bütünlüklə qlobal şəbəkə imkanlarından yararlanmaqla qurulan və müvafiq mənbələrdə internet-biznes adını almış biznesə investisiya qoyuluşlarının sürətlə artması və qəfil tənəzzül kimi tarixə düşmüş dot-com təcrübəsi maliyyə analitikləri tərəfindən az-çox dərəcədə araşdırılmışdır. Dünya şəbəkəsinin artan imkanlarının kommersiya baxımından cəlbediciliyi və ilk illərdə əldə edilən olduqca böyük izafi mənfəət, araşdırmalardan məlum olduğu kimi, investorların sayıqlığını bir qədər azaltmışdı. İnvestorların internet-biznes layihələrinin qiymətləndirilməsində birtərəfli yanaşması, əsasən NASDAQ indeksindən istifadə etməsində ifadə olunurdu.

Yüksək texnoloji istehsal sahələrində xüsusilə aktual olan NASDAQ indeksinin əsas indikator rolunda çıxış etməsi fəaliyyətin kompleksliyinə heç də təsirsiz qalmadı. Məhz həmin indeksin 2000-ci ilin martında kəskin aşağı düşməsi nəticəsində dot-com dövrü başa çatdı. Yüzlərlə şirkət müflis oldu və investorlar bu istiqamətə marağı itirdilər. Bununla belə, haqqında danışılan təcrübənin rəqəmsal iqtisadiyyatın inkişafı perspektivlərinə dair mülahizələrin əsaslandırılmasında nəzərə alınması öz aktuallığını itirməməlidir. Təhlilçilər tərəfindən isə dot-comun sabun köpüyü kimi partlamasının əsas səbəbləri qismində şəbəkə texnologiyalarının xarakteristikaları demək olar ki, qeyd olunmur. Haqqında danışılan dot-com iflasının əsas səbəblərinə, adətən, monetarist siyasətin xarakteristikaları aid edilir. Məsələn, aşağıdakı fikir, təhlilçilərin o zamankı mövqeyini əks etdirən səciyyəvi münasibət idi: növbəti beş ildə meydana çıxan “dot-com köpüyü” ucuz pullar, yüngül kapital, bazarda həddən artıq arxayınlıq və xalis möhtəkirlikdən qidalanmışdır.

Müasir rəqəmsal texnologiyaların və ümumilikdə rəqəmsal iqtisadiyyatın perspektivlərini qiymətləndirmək baxımından, dot-comun taleyinin təkrar olunması ehtimalını qiymətləndirmək üçün ekspertlər arasında aparılan sorğunun nəticəsi, zənnimizcə, diqqətəlayiqdir. Sorğunun nəticələri kifayət qədər fərqli olmuşdur. Başqa sözlə, böhran ehtimalını əhəmiyyətli və az hesab edənlər vardır. Rəqəmsal iqtisadiyyatda dot-com sindromunun baş verməsi ehtimalını kifayət qədər əhəmiyyətli hesab edənlərin arqumentlərinə aşağıdakıları aid etmək olar: hazırda rəqəmsal texnologiyaların sürətlə inkişafı və iqtisadiyyatın rəqəmsal sektorunun digər sektorlara nisbətən üstün inkişafı dövründə də belə bir ehtimalın mövcudluğunu nəzərdən qaçırmaq olmaz. Rəqəmsal iqtisadiyyatda yenidən maliyyələşmənin məhdud imkanları buna səbəb ola bilər.

Haqqında danışılan dot-com sindromunun baş verməsi ehtimalını az hesab edənlərə görə: bu gün rəqəmsal bazar startapların bumunun nəticəsi deyildir. Bu bazarda rəqəmsal xidmətlərə tələbi həm biznes, həm də ev təsərrüfatları formalaşdırır. Tələbin isə (məsələn, əşyaların interneti sektorunda) zəmanətli təklif doğurması davam edir. İnformasiya texnologiyaları əsaslı surətdə şaxələnmiş və insanın gündəlik həyatının bütün sahələrinə nüfuz etmişdir. Rəqəmsal xidmət bazarı iştirakçıları sırasında çox geniş müştəri auditoriyasına malik olan Uber, Airbnb, Amazon, Alibaba kimi dünyanın nüfuzlu və iri şirkətlərinin olması nikbinliyə əsas verir. Dot-com dövrünə nisbətən, qlobal şəbəkənin nüfuz dairəsi yüz dəfələrlə genişlənmişdir, cəmiyyət rəqəmsal texnologiyaların geniş tətbiqinə daha çox hazırdır. Dot-com böhranının mühüm səbəblərindən biri möhtəkirliyin geniş yayılması idi. Hazırda belə cəhdlər az olmasa da, onların qarşısını bu və ya digər dərəcədə alan şəffaflığın təminatı üçün texnoloji imkanlar sistemli surətdə genişləndirilir. Bu gün haqqında danışılan böhrandan təkcə investorlar deyil, bütün cəmiyyət ziyan görə bilər. Göründüyü kimi, dot-com böhranının təkrarlanmasını az ehtimallı hesab edənlərin arqumentləri daha əhatəlidir. Zənnimizcə isə, virtual məkanda iqtisadi münasibətlərin səmərəliliyi və ahəngdarlığının risklərlə qarşılaşması ehtimalı daim diqqət mərkəzində olmalıdır. Rəqəmsal iqtisadiyyatın xüsusi çəkisi artdıqca, həmin risklərin əhəmiyyətli dərəcədə azalması baş verə bilər.

Rəqəmsal iqtisadiyyatda artımın təmin edilməsində və onun əlverişli proporsiyalarının dəstəklənməsində dövlət-özəl bölmə tərəfdaşlığı özünəməxsus və mühüm rola malikdir. Məsələ ondadır ki, rəqəmsal mühitin tənzimlənməsində dövlət özəl bölmənin yerinə yetirə bilmədiyi vəzifələri icra edir. Başqa sözlə, normativ-hüquqi bazanın yaradılmasından tutmuş texnoloji platformaların formalaşdırılmasına qədər geniş spektrli işlər vardır ki, bunu ancaq dövlət qurumları görə bilər. Bu baxımdan, aşağıdakı fikirlə, müəyyən qeyd-şərtlərlə razılaşmaq məqsədəuyğundur: rəqəmsal iqtisadiyyatımızın beş sütunu var: tənzimləmə, infrastruktur, şəbəkə təhlükəsizliyi, yəni, kibertəhlükəsizlik, təhsil, xüsusilə rəqəmsal iqtisadiyyat üçün mütəxəssis hazırlığı və sistem əmələ gətirən texnoloji platformaları yaratmaq üçün tərəfdaşlığın formalaşdırılması. Bu beşlik biznes deyil, dövlətin bizneslə tərəfdaşlığında funksiyasıdır, burada pul qazanmaq məqsədi yoxdur.

**Rəqəmsal mühitdə artımı şərtləndirən amilləri klassik təsnifata uyğun nəzərdən keçirsək, ilk növbədə əmək resurslarının kəmiyyət və keyfiyyətcə müsbət dinamikası imkanlarına baxmaq lazımdır. Bu halda, işçi heyətinin kreativliyə və innovasiyalara həssaslığı vəziyyəti, ümumiyyətlə isə insan kapitalının xarakteristikaları araşdırılmalıdır.** İnsanın peşə fəaliyyəti dövründə ona uğur və gəlir gətirəcək qabiliyyətin (istedadın) dəstəklənməsinə yönəldilən investisiyalar kimi, insan kapitalı rəqəmsal iqtisadiyyatın inkişafının aparıcı amilidir. Rəqəmsal mühitdə insan kapitalının mövqeyinə münasibətdə təşəkkül tapan, keyfiyyətcə yeni paradiqma nəzərdə tutulur. Həmin kapital innovasiyalı inkişaf sistemində aparıcı yer tutmaqla intellektual potensialdan istifadə üçün zəruri mühit yaratmalıdır. Eyni zamanda, bu mühitdə rəqabət insan kapitalının təkrar istehsalında mərkəzi rol oynamalıdır.

Dayanıqlı inkişaf tələbləri insan kapitalının keyfiyyətinin yaxşılaşdırılması meyarlarını müəyyən etməli və insan kapitalının keyfiyyətinin qiymətləndirilməsi prosesində innovasiyalı modernləşdirmə mühiti poliqon rolunu oynamalıdır. Məhz belə şəraitdə insan kapitalı, sözün əsl mənasında, yeni ideyaların generasiyasına xidmət etməklə rəqəmsal iqtisadiyyatın əsasında dura bilər. Əlbəttə, insanın sağlamlığına, təhsilinə, elmin və idmanın inkişafına yönəldilən investisiyalardan səmərəli istifadə, intellektual mülkiyyətin istifadəsi sisteminin təkmilləşdirilməsi məsələləri də daim gündəlikdə olmalıdır.

**İnsan kapitalından səmərəli istifadə məşğulluğun səviyyəsi və strukturuna münasibətdə cəmiyyətin sosial sifarişləri nəzərə alınmaqla təmin edilməlidir. Bu məsələnin həllində təhsilə qoyulan tələblər daha da ciddiləşir. Məsələ ondadır ki, rəqəmsal mühitdə məşğulluğun məqbul səviyyəsi təhsil sisteminin innovativlik və inklüzivlik tələbləri baxımından daim yenilənməsi şəraitində təmin edilə bilər.**

Rəqəmsal mühitdə artımı şərtləndirən amillərin klassik təsnifatında əsas kapitalın həcminin artması xüsusi mövqeyə malikdir. Analoji olaraq rəqəmsal iqtisadiyyatın artımı amili kimi intellektual kapitalın artması imkanları araşdırılmalıdır. İntellektual kapitala aşağıdakıların sistemli məcmusu kimi yanaşma, təcrübi baxımdan, zənnimizcə, məqbuldur: insan və bazar aktivləri; brend məhsullar və xidmətlər, tərəfdaşlar arasında əldə edilmiş nüfuz, daimi müştərilərlə dayanıqlı münasibətlər; patentlər, müəllif hüquqlarını əhatə edən intellektual mülkiyyət; üsullar, texnologiyalar, dayanıqlı və dinamik strukturları əhatə edən infrastruktur və s. İntellektual kapitalın insan və istehlak kapitalı, habelə təşkilati kapital kimi tərkib hissələrinin fərqləndirilməsi rəqəmsal iqtisadi mühitin tələbləri baxımından məqsədəuyğun sayıla bilər.

Rəqəmsal texnologiyaların iqtisadi artıma təsiri müvafiq infrastrukturun mövcudluğu və dayanıqlı fəaliyyəti ilə birbaşa bağlıdır. Rəqəmsal proseslərin ahəngdarlığı informasiya (şəbəkə) infrastrukturunun dayanıqlı fəaliyyəti ilə bilavasitə bağlıdır. Haqqında danışılan infrastrukturun etibarlı fəaliyyəti, məlum olduğu kimi, onun əsas tərkib hissələrinin, o cümlədən verilənlərin ötürülməsi şəbəkəsinin və mühəndis təminatı altsisteminin qarşılıqlı əlaqəli dayanıqlıq tələblərinə cavab verən rejimdə işləməsindən asılıdır. Rəqəmsal mühitdə baza şəbəkə infrastrukturuna, habelə layihə komandalarının fəaliyyətinin səmərəliliyini yüksəldən və biznes qərarların qəbulu sürətini artıran alətlər, kontakt mərkəzləri və s. aid edildiyindən onlar da dayanıqlılıq tələblərinə cavab verən rejimdə işə hazır olmalıdırlar.

Şəbəkə infrastrukturunun dayanıqlı fəaliyyətinin təmin edilməsi üçün qlobal miqyasda zəruri və faktiki maliyyələşmənin nisbəti barədə aşağıdakı məlumat, zənnimizcə, olduqca diqqətəlayiqdir: ***“Dayanıqlı infrastrukturu maliyyələşdirmək üçün vəsait çatışmazlığı əsas problem olaraq qalır. McKinseyə görə, 2015-ci ildən 2030-cu ilə qədər infrastruktur maliyyələşdirilməsinə qlobal ehtiyac təxminən 93 trilyon dollar olacaqdır. Mövcud investisiya trendlərinə əsaslanaraq, demək olar ki, infrastruktura qoyulan investisiya yalnız 47 trilyon dollar təşkil edəcəkdir”.***

Yeni texnika və texnologiya iqtisadi artımın yuxarıda sadalananlarla yanaşı, mühüm amil qrupu hesab olunur. Əlbəttə, rəqəmsal mühitdə intellektual kapitaldan istifadə aləti kimi aparıcı rola malik olan rəqəmsal texnologiyaları da bu amillər qrupuna aid etmək olar. Belə yanaşmada rəqəmsal platformaların rəqəmsal iqtisadiyyatda artıma xidmət baxımından xarakteristikaları araşdırılmalıdır. Rəqəmsal iqtisadiyyatda artımı şərtləndirən amillər qismində idarəetmə innovasiyaları da qeyd edilməlidir. Həmin innovasiyalar rəqəmsal xarakterli olmaqla yanaşı, iqtisadi cəhətdən də özünü doğrultmalıdır.

**Rəsul Balayev,**
**iqtisad üzrə elmlər doktoru,**
**Azərbaycan Dövlət İqtisad Universitetinin**
**“Rəqəmsal texnologiyalar və tətbiqi informatika” kafedrasının professoru**

# Cəbrayılda Sənaye Parkının yaradılması regionun sənaye potensialının inkişafına imkan verəcək



Cəbrayıl rayonu ərazisində "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı Şərqi Zəngəzur iqtisadi rayonunda yeni istehsal sahələrinin yaradılmasına və məşğulluğun təmin olunmasına xüsusi töhfə verəcək.
Bu barədə Milli Məclisin deputatı Vüqar Bayramov deyib.
Deputat qeyd edib ki, kifayət qədər böyük iqtisadi imkanları olan Şərqi Zəngəzur iqtisadi rayonunun 27 ildən çox işğal altında qalması səbəbindən potensialından istifadə edilməyib. İşğaldan azad olunmamışdan əvvəlki ildə sözügedən iqtisadi rayonda 97 milyon 838 min manatlıq məhsul istehsal olunub. Bu istehsal da həmin rayonlardan bəzisinin bizim nəzarətimizdə olan yaşayış məntəqələrində və respublikanın digər bölgələrində məskunlaşan idarə və müəssisələr hesabına baş verib. Şərqi Zəngəzurun ölkə iqtisadiyyatının əsas sahələri üzrə məhsul buraxılışında xüsusi çəkisi cəmi 0,1 faiz olub. Bu, o deməkdir ki, uzun müddət işğal altında qalan böyük ərazilərimizin ümumi iqtisadiyyatda payı tam rəqəmlə də ifadə edilməyib. Göründüyü kimi, 27 ildən çox müddətdə həmin ərazilərimizin böyük iqtisadi potensialı Ermənistan işğalı nəticəsində məhv edilib.
"Cəbrayıl rayonunda Sənaye Parkının yaradılması regionun sənaye potensialının reallaşmasına imkan verəcək. Şərqi Zəngəzur iqtisadi rayonu təbii ehtiyatlarının həcmi baxımından seçilən rayonlarımızdandır. Bu, sənaye məhsullarının istehsalı üçün yeni imkanlar yaradır. Digər tərəfdən, Şərqi Zəngəzur iqtisadi rayonunda çox yaxın gələcəkdə regional nəqliyyat və logistik şəbəkə formalaşacaq. Zəngəzur dəhlizinə inteqrasiya və Naxçıvan Muxtar Respublikası ilə nəqliyyat-kommunikasiya xətlərinin bərpası kontekstində logistik imkanlar daha da güclənəcək. Bu isə yeni tranzit və ixrac potensialı deməkdir", - deyə V.Bayramov qeyd edib.
O bildirib ki, "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı Xudafərin körpülərinin olduğu istiqamətdə sərhəd-gömrük keçid məntəqəsinin açılması fonunda daha səmərəli fəaliyyət göstərə biləcək. Sənaye Parkında həm emal, həm də təkrar emal müəssisələrinin yaradılacağı gözlənilir. Sənədə əsasən, qabaqcıl texnologiyalara və "yaşıl enerji" konsepsiyasına əsaslanan rəqabətqabiliyyətli və innovativ sənaye sahələrinin, o cümlədən tikinti materialları istehsalının dəstəklənməsi prioritet olacaq. Bütövlükdə, Sənaye Parkı Şərqi Zəngəzur iqtisadi rayonunda yeni istehsal sahələrinin yaradılmasına və məşğulluğun təmin olunmasına xüsusi töhfə verəcək. Bu isə regionun qeyri-neft ixrac imkanlarının formalaşacağından xəbər verir.

# Xərclərin gəlirlərdən hansı hallarda çıxılmasına icazə verilir?

Vergi Məcəlləsinin 108-ci maddəsi gəlirin əldə edilməsi ilə bağlı xərclərin gəlirdən çıxılmasına icazə verir. Lakin bəzi xərclər bu qaydaya əsasən gəlirdən çıxıla bilməz.
Məsələyə aydınlıq gətirən maliyyə mütəxəssisi Vüqar Mirheydərovun sözlərinə görə, gəlirdən çıxılmayan xərclərdən danışdıqda, ilk növbədə əsas vəsaitlərin alınması və qurulmasına sərf edilən xərcləri qeyd etmək lazımdır.
Bu xərclər kapitallaşdırılır və Vergi Məcəlləsində göstərilən normalara əsasən amortizasiya edilir.
İqtisadçı qeyd edib ki, əyləncə və yemək xərclərinin, habelə işçilərin mənzil və digər sosial xərclərinin gəlirdən çıxılmasına yol verilmir. İstisna olaraq müvafiq icra orqanı tərəfindən müəyyən edilmiş normalar daxilində müalicə-profilaktik yeməklərə sərf edilən xərclər, həmçinin dəniz nəqliyyatında üzücü heyətə verilən yemək üzrə xərclər gəlirdən çıxıla bilər.
V.Mirheydərov, həmçinin bildirib ki, Vergi Məcəlləsinə görə, kassa çeki və ya mədaxil qəbz xərcləri təsdiq edən sənəd sayılmır. Bu isə o deməkdir ki, xərc hətta gəlirdən çıxılmayan xərclərə aid edilmədikdə, onun qanunvericilikdə nəzərdə tutulan təsdiqedici sənədləri olmadıqda o, gəlirdən çıxıla bilməz.

# "SOCAR Energy Ukraine" ən çox vergi ödəyicisi kimi ilk 10-luqda yer alıb




SOCAR-ın Ukraynadakı törəmə şirkəti olan "SOCAR Energy Ukraine" yanacaq bazarında 200 şirkət arasında ən çox vergi ödəyicisi kimi ilk 10-luqda yer alıb.
Şirkətdən bildiriblər ki, bu, Ukraynanın "Reytinq" nəşrinin sorğusuna əsasən bəlli olub.
"SOCAR Energy Ukraine" şirkətinin yanacaq bazarında ötən il dövlət büdcəsinə töhfəsi 156,6 milyon qrivna təşkil edib.
Qeyd edək ki, "SOCAR Energy Ukraine" SOCAR-ın törəmə şirkətidir. SOCAR-ın Ukraynadakı nümayəndəliyi 2008-ci ildə açılıb. Hazırda premium-klass yanacaqdoldurma məntəqələri şəbəkəsinə 58 kompleks və 4 neft bazası daxildir və Ukraynanın 11 vilayətində fəaliyyət göstərir.

# İpoteka və Kredit Zəmanət Fondunun xətti ilə 35 min 773 ipoteka krediti verilib

İpoteka və Kredit Zəmanət Fondunun (İKZF) xətti ilə verilən ipoteka kreditlərinin sayı və məbləği açıqlanıb.
İKZF-dən bildirilib ki, İpoteka və Kredit Zəmanət Fondunun xətti




ilə indiyədək 35 min 773 ipoteka krediti verilib.
Fondun vəsaitləri hesabına verilmiş ipoteka kreditləri üzrə məbləğ 1 milyard 924 milyon 414 min 555 manatdır.

# Bakıda Yaponiya-Azərbaycan investisiya forumu keçirilib



Oktyabrın 4-də Bakıda Yaponiya-Azərbaycan investisiya forumu keçirilib.
Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (ASK) prezidenti Məmməd Musayev bildirib ki, 8 Noyabr - Zəfər Günündən ötən qısa müddətdə Prezident İlham Əliyevin rəhbərliyi ilə başlamış quruculuq işləri uğurla davam edir. Azərbaycan azad edilmiş torpaqlarında dünyanın ən son texnoloji uğurlarını tətbiq edərək, "ağıllı kənd", "ağıllı şəhər" layihələrini sürətlə həyata keçirir. Qarabağda və Şərqi Zəngəzurda müasir şəhərsalma standartlarına uyğun quruculuq işləri, iqtisadiyyatın bərpa edilməsi və dirçəldilməsi üçün böyük investisiya imkanları yaradılır.
"Heç şübhəsiz ki, bu imkanlar barədə bugünkü Azərbaycan-Yaponiya İnvestisiya Forumunda iştirak edən investorlara da məlumat veriləcək. Yaponiya şirkətləri Azərbaycanda neft-qaz və energetika sənayesində aktiv fəaliyyətə, ölkəmizdə kommunikasiyaların yenidən qurulması və təchizatı, ekologiya, infrastruktur, Azərbaycan mütəxəssislərinin təlimi və sair sahələrdə yaxından iştirak edirlər. 2020-ci ilin yekunlarına görə, Azərbaycanla Yaponiya arasında ticarət dövriyyəsi 200 milyon ABŞ dollarıdır", - deyə Məmməd Musayev vurğulayıb. M.Musayev qeyd edib ki, ASK-a müxtəlif beynəlxalq təşkilatlar və investorlarla əlaqələr yaratmaq imkanlarından geniş istifadə edir. Yapon investorlarının təsis etdiyi "TET International Development" şirkəti Azərbaycan Sahibkarlar Konfederasiyasının fəal üzvlərindən biridir. Son iki ildə TET şirkəti Zaqatala, Oğuz, Şəki və Tovuz rayonlarında 4 tütün emalı müəssisəsi açaraq, ümumilikdə 10 milyon ABŞ dollardan artıq investisiya yatırıb.
Forumda Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev bildirib ki, bir neçə böyük şirkət Qarabağa vəsait ayıracaq. İşğaldan azad edilmiş torpaqlarımızda artıq bir neçə obyektə maliyyə yardımının göstərilməsinin texniki mərhələsinə başlanılıb.
KOBİA-nın İdarə Heyəti sədrinin birinci müavini Natiq Həsənov, Aqrar Kredit və İnkişaf Agentliyinin sədr müavini Leyla Məmmədova Azərbaycanla Yaponiya arasında aparılan iqtisadi əlaqələri yüksək qiymətləndiriblər.
Yapon "TET International Development" şirkətinin rəhbəri Taro Savada Yaponiyada Azərbaycan məhsullarının satış mərkəzinin açılmasının planlaşdırıldığını deyib.
Sonra Azərbaycan-Yaponiya arasında Anlaşma Memorandumu imzalanıb.

# Ukrayna bazarında Azərbaycanın şərab və şirə məhsullarının çeşidi genişləndirilir




Ukrayna bazarında Azərbaycan istehsalı olan şərab və spirtli içki, şirə məhsullarının çeşidi genişləndirilir.
Bu barədə Azərbaycanın "Az-Granata" şirkətinin Ukraynadakı nümayəndəliyinin rəhbəri Elimxan Mahmudov məlumat verib.
Onun sözlərinə görə, Azərbaycana məxsus 75-dək adda şərab və spirtli içki məhsulları Ukraynanın iri ticarət obyektlərində satılır. Artıq "Şuşa" konyakının Ukraynanın "Hyatt Regency" hotel şəbəkəsində satışı həyata keçirilir. Hazırda işğaldan azad olunan ərazilərimizin məkan adları ilə olan "Şuşa", "Ağdam", "Ağdərə" "Qarabag" brendi adı altında şərablar satışdadır.
E.Mahmudov bildirib ki, Ukrayna bazarında Azərbaycan şərabları və konyak məhsulları öz yerini möhkəmləndirib. Bundan başqa, Azərbaycanın nar, alma, üzüm şirələrinin Ukrayna bazarlarında satışı həyata keçirilir. Hətta Azərbaycanın nar şirələrinin satışı Ukrayna apteklərində də reallaşdırılır.

# Mirzə Camal Cavanşir Qarabaği (1773-1853)



Tarixçi, Qarabağ xanlarının baş vəziri Mirzə Camal bəy Məhəmmədxan bəy oğlu Hacılı-Cavanşir 1773-cü ildə Hacılı icmasında, Gecəgözlü obasında anadan olmuşdur. Atası Məhəmmədxan bəy Şuşaya qalabəyi təyin olunduqdan sonra paytaxta köçmüşdülər. Burada mədrəsə bitirmişdir. Bir neçə dilə bələdçiliyi vardı. Ədəbiyyatçı Adolf Berje yazır: "Mirzə Camal fars, ərəb və osmanlı dillərindən başqa avar və ləzgi dillərini də bilirdi. Tarix, coğrafiya və astronomiya haqqında yaxşı məlumatı vardı". Aydın və savadlı adam olan Camal bəy Mirzə ünvanını daşıyırdı. Mirzə Camal bəy divanda katib işləyirdi. Xalq arasında "mirzə" deyilən katiblər xanın əsasən daxili yazışmalarını aparırdılar.

1797-ci ildə baş vəzir Molla Pənah Vaqif xanlığı ələ almış Məhəmməd bəy Sarıcalı-Cavanşir tərəfindən öldürüldü. İbrahimxəlil xan qaçqınlıqdan dönüb, xanlığa yenidən yiyələndikdən sonra baş vəzir vəzifəsinə divanxana katibi Mirzə Camal bəy Hacılı-Cavanşiri təyin etdi.

1822-ci ildə xanlıq ləğv edildi. Mirzə Camal bəy rus hərbi idarəsi tərəfindən yaradılan məhkəməyə işə keçirildi. On səkkiz il məhkəmə sistemində çalışdıqdan sonra qocalığı ilə bağlı 1840-cı ildə istefaya çıxdı.

Mirzə Camal bəy tibb elmini gözəl bildiyindən həkimliklə məşğul olmağa başladı. Ömrünün sonuna qədər adamları pulsuz müalicə etdi.

Mirzə Camal bəy böyük mülkədardı. Qarabağın əksər mahallarında mülkü vardı.

1842-ci ildə Qarabağdan deputatlığa namizəd verilərdə Şuşanın Cavanşir bəyləri Mirzə Camal bəyi, Kəbirli bəyləri Rəhimbəyi seçmək istəmişdilər. Bu seçki böyüyüb qovğaya çevrilmişdi. O dövrün ziyalıları bu hadisəyə öz münasibətlərini bildirmişdilər.

***Mirzə Camal bəy Cavanşir Qarabağ tarixçi idi. 1815-ci ildə "İran tarixi haqqında qısa icmal" adlı tarixi əsər qələmə almışdı. 1847-ci ildə isə Qarabağın siyasi olaylarından bəhs edən "Qarabağ tarixi" adlı tarixi əsər yazmışdır.***

**Mirzə Camal bəy 1853-cü ildə Şuşada vəfat etmişdir.**

Mirzə Camal bəy Balaxanım xanımla ailə qurmuşdur. Rzaqulu bəy, Mehdi bəy adlı oğulları, Hürzad xanım, Qönçə xanım və Çimnaz xanım adlı qızları olmuşdur.

**Rzaqulu bəy Vəzirov**
**(1814-1875)**

Mirzə Camal bəyin oğlu tarixçi Rzaqulu bəy Vəzirov 1814-cü ildə Şuşa şəhərində anadan olmuşdur. İbtidai təhsilini molla yanında almışdır. Sonra mədrəsədə təhsilini davam etdirmişdir. Şuşa qəza məktəbində rus dilini öyrənmişdir. Şuşa qəzasının Çiləbörd sahəsində murov yardımçısı, sonra murov vəzifələrində çalışmışdır. 1842-ci ildə praporşik rütbəsi almışdır. O, Mirzə Fətəli Axundovla dost idi və onunla yazışırdılar.

Rzaqulu bəy Vəzirov Azərbaycan tarixini və ədəbiyyatını gözəl bilirdi. Bu sahələrdə qələmini işlətmişdi. Bioqraf kimi də çalışmışdı. Onun qələmindən "Dəftərə vəqaye və keyfiyyəte hökumət və istiqlale xəvanin məğfurun, mərhumun Pənah xan, İbrahim xan dər vilayəte Qərabağ" adlı tarixi əsər, "Müqəddimati keyfiyyəti bəzi əhvalat və sərgüzəştü Axund Molla Əlipənah Vaqif təxəllüs" və "Müqəddimati-sərgüzəştü Qasım bəy Zakir təxəllüs" adlı bioqrafik əsərlər çıxıb.

Rzaqulu bəy Vəzirovun tarixi dərindən bilməsi heç də təsadüfi deyil. Onun ilkin mənbəyi görkəmli tarixçi olan atası Mirzə Camal Cavanşir idi. Qocaman tarixçi oğlunu bu sahədə qələm çalmağa həvəsləndirirdi. Rzaqulu bəy atasının "İran tarixi" adlı əsərini redaktə etmiş, üzünü köçürmək üçün katiblərə təqdim etmişdi.

Rzaqulu bəy 1875-ci ildə vəfat etmişdir.

Rzaqulu bəy Hacı Ağalar xan Qasım bəy oğlu Sarıcalı-Cavanşirin qızı Dürnisə bəyimlə ailə qurmuşdur. Həşim bəy, Məhəmmədşəfi (Məmiş) bəy, Camal bəy adlı oğulları, Nənəxanım xanım, Güllü xanım və Züleyxa xanım adlı qızları olmuşdur.

# Toğanalı-Kəlbəcər avtomobil yolu üzərində Murovdağ tunelinin inşası davam etdirilir



Avqustun 16-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər və Laçın rayonlarında olarkən Toğanalı-Kəlbəcər avtomobil yolu üzərində Murovdağında inşa olunacaq 11.6 kilometrlik tunelin təməlinin qoyulması mərasimindən dərhal sonra genişmiqyaslı tikinti işlərinə başlanıldı.

AZƏRTAC xəbər verir ki, Göygöl və Kəlbəcər rayonlarını birləşdirən Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolunun layihə uzunluğu 80.7 kilometr təşkil edir. Layihənin 13.5-ci kilometrlik hissəsindən Murovdağ silsiləsi başlanır və yüksəklik 1700 metrdən Murovdağ zirvəsinədək 3250 metrə qədər artır.

Burada qış fəslində güclü qar və şaxtalı hava şəraitində yolun təhlükəsiz istismarı mümkün olmaya bilər. Bu üzdən çətin relyefə malik ərazidə 31.5 kilometrlik yolun tikilməsi əvəzinə bu hissənin Murovdağ silsiləsinin altından 11.6 kilometrlik tunel ilə keçilməsi daha məqsədəuyğun hesab edilib. Tunel bir istiqamət üzrə 2 hərəkət zolaqlı və 12 metr enində olacaq.

Murovdağ tunelinin sol hərəkət istiqaməti üzrə üst yarı hissədə 125 metr, sağ istiqamət üzrə üst yarı hissədə isə 115 metr qazma işləri aparılıb.

Hazırda tuneldə qazma, partlatma və qırıcı üsulları ilə tunelin qaya qruntlardan ibarət hissələrinin kənarlaşdırılması işləri davam etdirilir.

Dövlətimizin başçısının tapşırığına əsasən Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolu Qarabağın inkişaf planı nəzərə alınmaqla 2-4 hərəkət zolaqlı olmaqla 1-ci və 2-ci texniki dərəcəyə uyğun olaraq inşa edilir. Belə ki, layihənin keçdiyi ərazinin sərt dağlıq və qayalıq relyefinin olmasını nəzərə alaraq, yolun əsas hissəsinin II texniki dərəcəyə uyğun, yəni hərəkət hissəsinin 2 zolaqdan, yoxuşlarda isə əlavə zolaq verilməklə tikintisi nəzərdə tutulub. Tunel və körpü olan hissələrdə isə 1-ci texniki dərəcəyə uyğun 4 hərəkət zolağının inşası planlaşdırılır.

İş həcmi və layihənin qısa müddət ərzində yekunlaşdırılması tapşırığı nəzərə alınaraq tikintini Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin "3 N-li Magistral Yolların İstismarı" MMC ilə subpodratçı şirkətlər olaraq yol tikintisi sahəsində ixtisaslaşmış Türkiyənin "Kolin İnşaat Turizm Sənaye ve Ticarət" və "Cengiz İnşaat Sənaye ve Ticarət" şirkətləri birgə icra edir. Hazırda yolun müəyyən hissələrində layihə-axtarış, geologiya və səfərbərlik işləri aparılır. "İnşaat Norma və Qaydaları"nın tələblərinə əsasən aparılan işlər agentliyin rəhbərliyinin nəzarəti altındadır.

Yeni inşa edilən yol boyunca layihəyə uyğun suların ötürülməsini təmin etmək məqsədilə ümumi uzunluğu 2575 metr olan 103 dairəvi boru, həmçinin zəruri olan yerlərdə ümumi uzunluğu 450 metr olan 5 yeni avtomobil körpüsünün inşası işləri də icra olunacaq.

Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolu başlanğıcını Göygöl rayonunun Toğanalı kəndindən götürməklə işğaldan azad edilmiş Kəlbəcər rayonunun ərazisindən keçir. Bu yol sözügedən rayonun bir çox yaşayış məntəqələri ilə yanaşı, rayon mərkəzinə və məşhur İstisu ərazisinə qədər rahat gediş-gəlişi təmin edəcək. Bütün yollar Qarabağa aparır...

# Azərbaycan noyabrda "OPEC+" üzrə gündəlik neft hasilatının 400 min barel artırılmasını dəstəkləyib




Neft İxrac edən Ölkələr Təşkilatına (OPEC) üzv və qeyri-üzv ölkələrin nazirlərinin 21-ci iclasında gündəlik neft hasilatının noyabrda 400 min barel artırılmasına dair qəbul edilmiş qərara Azərbaycan da öz dəstəyini ifadə edib.

Energetika Nazirliyindən bildirilib ki, yeni "Əməkdaşlıq Bəyannaməsi" Azərbaycanda gündəlik xam neft hasilatının noyabrda daha 7 min barel artırılaraq 647 min barelə çatdırılmasını, ixtisarla bağlı öhdəliyin isə 71 min barel həcmində olmasını nəzərdə tutur.

Xatırladaq ki, "OPEC+" ölkələri nazirlərinin iyul ayında keçirilmiş 19-cu iclasında avqustdan etibarən gündəlik xam neft hasilatının hər ay 400 min barel artırılmasına, 5,8 milyon barel həcmində ixtisarların isə 2022-ci ilin sentyabrında başa çatdırılmasına və gələn ilin mayından etibarən neft hasilatının baza səviyyəsinə qismən düzəlişlər edilməklə "Əməkdaşlıq Bəyannaməsi"nin müddətinin 2022-ci ilin sonunadək uzadılmasına dair qərar qəbul edilib.

# "Pandemiyaya görə yardım 5 milyon vətəndaşı əhatə edib"

Bunu İqtisadiyyat naziri Mikayıl Cabbarov Bakıda keçirilən "Dayanıqlı inkişafın maliyyələşdirilməsi: COVID-19 pandemiyasından dayanıqlı və yaşıl bərpa" mövzusunda tədbirdə bildirib.

Koronavirus (COVID-19) pandemiyasından əvvəl dünya iqtisadiyyatında orta hesabla 3,5% illik artım olmuşdusa, pandemiyanın davam etdiyi 2020-ci ildə 3,2% azalma olub".

"Ötən il pandemiya ilə bağlı Azərbaycanda ümumi daxili məhsul 4,3% azalıb. Dövlətin gəlirləri azalsa da, hökumət makro iqtisadi sabitliyin təmin edilməsi üçün əhaliyə və biznesə 2,7 milyard ABŞ dolları məbləğində yardım göstərib. Bu yardım paketi 5 milyon vətəndaşı əhatə edib", – deyə o, qeyd edib.

Nazirin sözlərinə görə, 2021-2022-ci illər Azərbaycan iqtisadiyyatının bərpa dövrü olacaq və münbit dinamika bu ilin sonuna qeyri-neft ixracının dəyərini 2,2 milyard dollara çatdırmağa imkan verəcək.

# AZAL Ermənistan ərazisi üzərində hava məkanından istifadə etməyə başlayıb

"Azərbaycan Hava Yolları" aviaşirkəti oktyabrın 6-dan etibarən Bakı-Naxçıvan-Bakı marşrutu üzrə daxili reysi yerinə yetirərkən Ermənistan ərazisi üzərində hava məkanından istifadə etməyə başlayıb.




AZAL-ın mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu addım Azərbaycanın regionda nəqliyyat kommunikasiyalarının açılmasına qəti hazır olduğunu nümayiş etdirir və bütün sərhəd dövlətlərin maraqlarına cavab verir.

Bakı-Naxçıvan-Bakı reysinin marşrutunun dəyişməsi, həmçinin bu istiqamət üzrə uçuş vaxtının və uçuş zamanı yanacaq sərfiyyatının azalmasına gətirib çıxaracaq.

Beləliklə, bundan sonra AZAL bu reysi yerinə yetirərkən Ermənistan və İran üzərindən keçən dəhlizlər daxil olmaqla, mövcud bütün hava dəhlizlərindən istifadə edə bilər.

# Azərbaycan neftinin qiyməti son iki ilin rekordunu yeniləyib



Azərbaycan neftinin qiyməti bahalaşıb.

"Azeri Light" markalı neftin bir barelinin qiyməti 3,08 dollar artaraq 83,56 dollar təşkil edib. Qeyd edək ki, Azərbaycan neftinin bir barelinin minimum qiyməti 2020-ci ilin aprelin 21-də (15,81), son iki il ərzində maksimum qiyməti isə bu il sentyabrın 27-də (80,77) qeydə alınıb. Neft qiymətlərinin artımına səbəb əksər ölkələrdə COVID-19-la bağlı yumşalmanın tətbiqi və qlobal miqyasda vaksinasiya prosesi olub.

# Cahangirov Rauf Xəyyam oğlu



Cahangirov Rauf Xəyyam oğlu avqustun 31-də Astaranın Maşxan kəndində anadan olub. Əfqanıstan müharibəsinin şəhidi Nizami Əliyev adına Maşxan kənd orta məktəbində təhsil alıb. 2015-ci ildə orta təhsilini bitirib, Lənkəran Dövlət Universitetinin Maliyyə fakültəsinə qəbul olunur. LDU-nun 2019-cu il məzunudur. Elə həmin ildə həqiqi hərbi xidmətə yollanır. Həqiqi hərbi xidmətdən sonra da narahat idi Rauf.

Babası Cahangirov Hacıvəli kişinin səsindəki həsrət ağlayırdı: ***"Gələndən sonra deyirdi, dədə, elə bil avtomat çiynimdədi. Səfərbərlik olan kimi getdi. "Dədə, o Xocalı faciəsinin qisasını almalıyıq", - deyirdi elə. Yanıram mən. Balamın həsrətini çəkirəm. Doymadım ondan. Özü getdi. Qalmadı, dedi qala bilmərəm. Torpaqlarımızı kim azad etsin?!"***

Beləcə getdi Rauf sentyabrın 21-də - özü getdi. Könüllü getdi. Torpaqlarımızı namərd düşmənlərdən azad etməyə getdi... Qisasını aldı Rauf.

Atası Xəyyamın söhbətlərindən: ***"Əla qiymətlərlə oxuyub Rauf. Çox çalışqan, sakit uşaq idi. Çox savadlı olduğundan "Kaspi" kurslarına dəvət etmişdilər işləməyə. Dedi "əsgər gedəcəm".***

"Ayağının altı düz idi, onu əsgər aparmırdılar. Özü təkcə gedib həkim müayinəsinə, ona deyiblər "sən azadsan". Hirslənib orda ki, "sizdən şikayət edəcəm". Mənə sonra danışdı. Dedim qanun belədir, getmə. Dedi "olmaz, getməliyəm". Həqiqi hərbi xidmətdən qayıtdıqdan iki ay sonra da səfərbərlik elan olundu, könüllü getdi. Zəngilandan sonra Hadruta gedirlər. Artıq Şuşa uğrunda döyüşlər başlayanda - noyabrın 1-də Rauf ayağından yaralanır. Onu Hadrut xəstəxanasına yollayırlar. Noyabrın 2-də isə 6 nəfər yaralını Füzuli xəstəxanasına aparır təcili yardım. Səbəbini bilmirəm, necə olubsa, səhvən Laçına gedir. Laçın isə o vaxt düşmənlərdə idi. Bir xeyli bu yaralılardan xəbər çıxmadı. Hər yerə müraciət etdik. Müdafiə Nazirliyindən onların Laçında olduğunu öyrəndik. Elə də oldu. Laçın alınandan sonra tapdıq oğlumuzu. Yaralıların hamısını qətlə yetirmişdilər", - dedi ata. **47 gün sonra doğma kəndinə dönür şəhidimiz...**

**Asanlıqla "yararsız" adını ala bilərdi Rauf. Amma vətənə yararsız olmaq ona ağır gəlib. Vətəninin tarixini yaxşı bilirdi Rauf. Bu tarix onu ağrıdırdı...**

Cahangirovlar ailəsində iki oğlan və bir qız böyüyüb. Qardaşı Ramin Cahangirov da ali təhsillidir. Bacısı, sonbeşik Sənubər isə 8-ci sinif şagirdidir.

Füzulidən başlayıb döyüşlərə ərənimiz. Cəbrayıl, Zəngilan, Hadrut, Xocavənd uğrunda döyüşlərdə hədsiz igidliklər göstərib. Onun haqqında döyüş yoldaşlarının danışdıqları heyrət doğurur: ***"Nə qədər yaralını xilas edib Rauf. Qorxmurdu. Mina atılan səngərlərə belə gedirdi ki, birdən yaralı olar, birdən şəhid olar. Onları çiynində daşıyırdı". Üçüncü komandirləri şəhid olandan sonra Raufu komandir təyin edirlər. "Onun yaralanmaması da möcüzə kimiydi. "Odda yanmaz, suda batmaz", deyirdik ona. O qədər cəsur idi. Yaralandı amma. Biz onun şəhid olduğunu bilmirdik. Elə bilirdik ki, hospitaldadı, müalicə alır. Qələbədən sonra axtardıq biz də. İnanmırdıq ki, ona nəsə olar"***, - bunları dedi döyüş yoldaşı Emil.

Əmisi Yusifin sözlərinə görə, Rauf tez-tez ***"mən erməniləri bağışlaya bilmirəm. Mən hərbiyə getməliyəm. Biz torpaqlarımızı düşmən əlində qoya bilmərik. Mən artıq silahlardan istifadəni bilirəm. Silahı yerə qoymaq zamanı deyil"***, - deyirdi. Beləcə getdi. Özünə belə xoş idi, belə rahat idi.

Ali Baş Komandanın sərəncamı ilə ***"Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə"*** medalları ilə təltif olunan Rauf torpaqları işğalda olan hər bir vətənsevdalı kimi narahat yaşayırdı. Rahatlığını, xoşbəxtliyini işğal olunmuş ərazilərimizin azadlığında görürdü.

Ona görə də indi rahatdır, xoşbəxtdir Rauf Xəyyam oğlu Cahangirov.

**Kəmalə ABİYEVA**

# * Bordo bereli komandir, xüsusi təyinatlı Həmid

***"Döyüşlərdə onun komandanlığı altında döyüşən xüsusi təyinatlılar əməliyyata arxayın gedirdilər. Çünki o, hamını sağ aparıb, sağ da gətirirdi... Öz yaralı əsgərini neytral zonadan çıxara bilirdi və ona əmr edirdi ki, "ölmə!"***, - döyüş yoldaşları deyir onun barəsində.



Vətən müharibəsinin "Qarabağ" ordenli şəhidi, XTQ-nin baş leytenantı Həmid Cavanşir oğlu Abbasbəyli. Xüsusi Təyinatlı Qüvvələrin Baş Leytenantı Abbasbəyli Həmid Cavanşir oğlu.

17 noyabr 1991-ci ildə Bakı şəhərində ziyali ailəsində anadan olub. İlk təhsilini Binəqədi rayonu 157 nömrəli tam orta məktəbdə almış, müəllimlərinin sevimli və çalışqan şagirdi olmuşdur. Tarix fənninə xüsusi marağı var idi. Dərslərindəki müvəffəqiyyətlərini həm oz bacarığına, həm də genlərini daşıdığı ziyalı ailəsinə borclu olan Həmidin Babası Həmid müəllim Slavyan Universitetinin sayılıb seçilən müəllimlərindən olmuşdur. Atası və anası rus dili və ədəbiyyatı müəllimləridir. Həmid dünyaya gələndən səbirli, təmkinli olması ilə dostlarının sevgisini qazanmışdı, bu xüsusiyyətləri ilə hamıdan seçilirdi.

Orta məktəbdən sonra təhsilini Cəmşid Naxçıvanski adına Hərbi Liseydə davam etdirmişdir. Liseyi müvəffəqiyyətlə bitirəndən sonra Heydər Əliyev adına Ali Hərbi məktəbə daxil olmuşdur. Ali təhsili başa vurduqdan sonra cəbhə bölgəsində çalışmış, "Aprel döyüşləri"nin iştirakçısı olmuşdur. O, kiçik yaşlarından məktəbdə, sonra ali məktəbdə, eləcə də iş kollektivində öz mədəniyyəti, tərbiyəsi, dünyagörüşü və nizam-intizamı ilə seçilmişdir. 4 xarici dil bilirdi. İdmana da xüsusi marağı olan Həmid dəfələrlə boks və qaydasız döyüş yarışlarının qalibi olmuş və müxtəlif medallarla təltif olunmuşdur. Ali təhsilini başa vurduqdan sonra cəbhə bölgəsində Milli Qəhrəman Mübariz İbrahimovun adını daşıyan bölükdə tağım komandiri olaraq hərbi xidmətə başlamışdır. 2015-ci ildə Xüsusi Təyinatlı Qüvvələrin sırasına qoşularaq hərbi xidmətini davam etdirmişdir.

2016–2017-ci illərdə Türkiyə Respublikasında, 2017–2018-ci illərdə Çin Xalq Respublikasında xüsusi təlim kurslarında iştirak etmişdir.

2016-cı ilin 2–5 aprelində baş verən "Aprel döyüşləri"nin iştirakçısı olmuşdur. 2020-ci ilin iyun ayının 24-də Moskva şəhərində Qırmızı meydanda baş tutmuş hərbi paradda Vətənini qürurla təmsil etmişdir.

*** «Bordo bereliler" Türkiyənin göz bəbəyi sayılır. Bu gün dünyada ən yenilməz döyüş qruplarından sayılan bu hərbçilər haqqında bir sıra inanılmaz həqiqətlər mövcuddur. Bu hərbçilər ən çətin hərbi əməliyyatlara rahatca girib uğurla çıxa bilirlər. Onlar suda, quruda, şəhərdə və kənddə, istənilən şəraitdə hərbi əməliyyat keçirə bilmək qabiliyyətinə sahibdirlər.***

27 sentyabr 2020-ci ildən etibarən İkinci Qarabağ müharibəsində qəhrəmancasına vuruşmuş, minaya düşərək ayağından yaralanmış, lakin ilkin tibbi yardımdan sonra dərhal döyüşə davam etmiş, Füzulinin, Hadrut qəsəbəsinin, Cəbrayılın alınmasında xüsusi fəallıq göstərmişdir.

Gəncliyini, ömrünü vətənə fəda edən Həmid qələbəni görməsə də, adını qəhrəmanlar sırasına yazıb. Qardaşı Ağasıya etdiyi zəngdə ***"Anam sənə əmanət", - demişdi. Həmin zəng Həmidin sonuncu zəngi oldu.***

*Bu gün deyəsən həmin gündü, ay ana*
*Səbirli ol qurban olum, ağlama.*
*Səhər açılar xəbərlərdə baxarsız*
*Qarabağdan salam var Azərbaycana.*

Olmadı amma, şəhid xəbəri aldı ana o zəngdən sonra.

***Qarabağda döyüş gedir, sevgilim***
***Laçın düzündən yenə güllər dərim***
***Əgər qismət olsa geri dönməyə***
***İstəyirəm gülləri sənə verim...***

Laçın dəhlizi Həmid üçün ölüm-dirim mübarizəsinin sonu oldu.

Həmid Abbasbəyli Cəbrayılın, Xocavəndin, Hadrut qəsəbəsinin, Füzulinin və Laçının azadlığı uğrunda gedən ən ağır döyüşlərdə savaşıb.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunələrinə görə Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamlarına əsasən Həmid Abbasbəyli ölümündən sonra "Qarabağ" ordeni, "Vətən uğrunda" medalı, "Cəbrayılın azad olunmasına görə" medalı, "Xocavəndin azad olunmasına görə" medalı, "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilib. **II Şəhidlər Xiyabanında dəfn olunub.**

2021-ci ildə Həmid Abbasbəylinin Xətai rayonunda yaşadığı binanın önündə xatirə lövhəsi qoyulmuş və bağ salınmışdır.

Şəhidlik zirvəsi ən uca və müqəddəs zirvədir. Şəhidlik, Vətənə olan sonsuz sevginin təcəssümü, Vətənə can fəda etməkdir. Şəhidlik şərəf, qeyrət, ucalıq zirvəsidir. Bu zirvəyə çatmaq, bu məqama yüksəlmək hər kəsə nəsib olmur.

Bordo bereli komandir, xüsusi təyinatlı qüvvələrin baş leytenantı Həmid Abbasbəyli aprel döyüşləri də daxil olmaqla, 44 günlük Vətən müharibəsində özünün qəhrəmanlığı ilə xalqımızın yaddaşında silinməz iz buraxıb.

***Ruhun şad olsun, şəhidim!***

**Yeganə MƏMMƏDOVA**

# Uşaqlar arasında "Vətən sevgisinə rəng qat!" adlı rəsm müsabiqəsi

"Bakcell"-in dəstəyilə şəhid övladları üçün xeyriyyə sərgisi təşkil olunacaq.

Bakcell və «GİD CSR Consulting» şirkəti uşaqlar arasında "Vətən sevgisinə rəng qat!" şüarı altında rəsm müsabiqəsi elan edib. Layihənin məqsədi vətən uğrunda canlarını fəda edən qəhrəman şəhidlərimizin övladlarına öz həmyaşıdlarının qayğı və diqqətini göstərməkdir.

Layihə çərçivəsində Bakı və Sumqayıt şəhərlərində və Abşeron rayonunda yaşayan 7-17 yaşlı uşaqlar arasında rəsm müsabiqəsi elan ediləcək. Seçilən rəsm əsərlərinin satışından əldə olunan vəsait isə İkinci Qarabağ müharibəsi şəhidlərinin övladlarına hədiyyələrin alınması üçün xərclənəcək.

Beləliklə, "Vətən sevgisinə rəng qat!" şüarı altında keçirilən bu aksiyaya qoşulan uşaqlar 100 şəhidin övladına dəstək və dostluğunu nümayiş etdirmək imkanı əldə edəcək.

Aksiyada iştirak etmək istəyən uşaqlar sərbəst mövzu üzrə çəkilmiş rəsmlərini 01 noyabr 2021-ci il tarixinə qədər office@gidconsulting.az ünvanına göndərməlidir.

Müsabiqədə iştirak qaydaları və aksiya barədə daha ətraflı məlumat https://gidconsulting.az/?p=101 səhifəsində yerləşdirilib.

Bakcell şirkəti xüsusi qayğıya ehtiyacı olan uşaqların inkişafını, təhsilini və cəmiyyətə inteqrasiyasını diqqət mərkəzində saxlayır. Şirkətin həyata keçirdiyi "Bakcell Stars" adlı Korporativ Sosial Məsuliyyət proqramı çərçivəsində hər il yüzlərlə uşağın təhsilinə və sosial rifahının yaxşılaşdırılmasına töhfə verilir.




# Azərbaycanın turizm məhsulları Rusiyada təbliğ olunub

Azərbaycan Turizm Bürosunun işgüzar proqramın tərəfdaşı qismində iştirak etdiyi Rusiyanın Yekaterinburq şəhərində keçirilən "Expotravel 2021" beynəlxalq turizm sərgisində ölkəmizin turizm imkanları təbliğ edilib.

Dövlət Turizm Agentliyindən AZƏRTAC-a bildirilib ki, sərgidə iştirakın məqsədi Azərbaycanın turizm məhsullarını Rusiyanın ən böyük vilayətlərindən olan Sverdlovsk sakinlərinə təqdim etmək, həmçinin Yekaterinburq şəhərində fəaliyyət göstərən turizm şirkətləri ilə tərəfdaşlıq əlaqələrini formalaşdırmaq olub.




Tədbirdə aktiv istirahətə həsr edilən plenar görüş keçirilib, habelə "TASS-URAL" media mərkəzinin təşkil etdiyi mətbuat konfransında, eləcə də Yekaterinburqun yerli televiziya kanalının səhər proqramında (https://bit.ly/2YieFyf) Azərbaycanın turizm imkanları haqqında geniş məlumat verilib. Bundan əlavə, Azərbaycanın müalicəvi kurortlarına və dağ-xizək mərkəzlərinə həsr edilmiş 2 prezentasiya təşkil olunub.

1999-cu ildən etibarən keçirilən "Expotravel 2021" beynəlxalq turizm sərgisində bu il 15 ölkə iştirak edib və sərgini 4500-ə yaxın şəxs ziyarət edib.

Qeyd edək ki, cari ilin 10 iyunundan etibarən Rusiya Federasiyası vətəndaşları hava yolu ilə Azərbaycan ərazisinə müəyyən edilmiş şərtlərlə səfər edə bilirlər.


**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
**Ziyad Səmədzadə, Akif Musayev, Vahid Novruzov, Ədalət Muradov, Qüdrət Kərimov, Elşən Hacızadə, Süleyman Qasımov, Mirqasım Vahabov, Bəyalı Ataşov, Məiş Əhmədov, Aydın Hüseynov, Rəsul Balayev, Müşfiq Atakişiyev, Zahid Məmmədov, Aytən Səmədzadə, Elşad Səmədzadə**

**Dizayner:**
**Lamiyə NƏBİYEVA**

**Redaksiyanın ünvanı:**
**Əliyar Əliyev küçəsi, 7**
**Redaksiya: +99412 566 09 60**
**Faks: +99412 514 14 27**
**Mühasibatlıq:**
**+99412 566 63 08**

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500**